# Sərnişinlər üçün sadələşdirilmiş bəyannamə

- **Sərnişinlər üçün sadələşdirilmiş bəyannamə fiziki şəxslər səfərləri zamanı aldıqları, gətirdikləri, müvəqqəti gətirdikləri və ya apardıqları malları bəyan etmək məqsədilə tərtib olunur.**
- **“Sərnişinlər üçün sadələşdirilmiş bəyannamə”ni tərtib etmək üçün “e.customs.gov.az” portalına 2 üsulla daxil ola bilərsiniz: portalın giriş pəncərəsindən “Asan Login” (1) və ya “Qeydiyyatsız xidmətlər” (2) keçidlərindən birini seçməklə.**
- **Portala “Asan Login”lə daxil olduqda “Əsas Xidmətlər” menyusundakı “Fiziki şəxslər üçün” bölməsindən “Sərnişinlər üçün sadələşdirilmiş bəyannamə” elektron xidmət kartını seçməklə xidmətdən istifadə edə bilərsiniz. (Şəkil 1)**




**Şəkil 1.**

- **Portala qeydiyyatsız daxil olduğunuz təqdirdə, "Qeydiyyatsız xidmətlər" bölməsindən "Sərnişinlər üçün sadələşdirilmiş bəyannamə" xidmət kartı seçildikdən sonra "+ Yeni" düyməsini sıxaraq bəyannamə tərtib etməlisiniz. (Şəkil 2)**
- **Əgər bəyannaməni qeydiyyatdan keçmədən tərtib etmisinizsə, pasport nömrənizi və doğum tarixinizi daxil etməklə bəyannaməni tapa və düzəliş edə bilərsiniz.**




**Şəkil 2.**

- **Sərnişinlər üçün sadələşdirilmiş bəyannamənin tərtib olunması 5 mərhələdən ibarətdir.**

- **"Sərnişinlər üçün sadələşdirilmiş bəyannamə" xidmət kartı seçildikdən sonra açılan pəncərədə "Yeni bəyannamə" düyməsi sıxılmaqla proses başlanılır.**






### 1. İlk olaraq "Başla" mərhələsi üzrə məlumatlar daxil edilir. (Şəkil 3)

- **Bu mərhələdə gömrük sərhədindən keçirəcəyiniz mal sizə aiddirsə "Özümə aid" sahəsini seçib şəxsi məlumatlarınızı, əgər digər şəxsə (yetkinlik yaşına çatmayan) aiddirsə o zaman "18 yaşına çatmamış şəxs üçün" sahəsini seçib həmin şəxsin məlumatlarını daxil etməlisiniz.**
- **"Vətəndaşlığı" altbölməsində vətəndaşı olduğunuz ölkənin adı qeyd olunmalıdır.**
- **"Xarici pasport" nömrəsi altbölməsində özünüzə və ya digər şəxsə aid pasportun seriya nömrəsi daxil edilir.**
- **"Doğum tarixi" altbölməsində özünüzün və ya digər şəxsin doğum tarixi məlumatları daxil edilməlidir.**
- **"Bəyan edən şəxsin Pasport nömrəsi" altbölməsində isə bəyannaməni dolduran şəxsin pasportunun seriya nömrəsi daxil edilməlidir.**
- **"İrəli" düyməsi sıxılmaqla növbəti mərhələyə keçid edilir.**

✓ **QEYD:** *Bu elektron xidmətdən istifadə etməklə gömrük sərhədindən keçirəcəyiniz mal, valyuta və ya nəqliyyat vasitələri barədə sadələşdirilmiş bəyannamə tərtib etməlisiniz. və bəyannamə məlumatlarını çap edərək sərhəddəki gömrük əməkdaşına təqdim etməlisiniz.*




**Şəkil 3.**

## 2. İkinci mərhələdə “Şəxsi məlumatlar” əlavə olunur. (Şəkil 4)

- **Pasport məlumatlarına uyğun olaraq soyad, ad, ata adı avtomatik doldurulur.**
- **“Əlaqə nömrəsi” altbölməsində isə istifadənizdə olan mobil nömrəni mütləq daxil etməlisiniz.**
- **“İrəli” düyməsi sıxılmaqla növbəti mərhələyə keçid olunur.**

✓ **QEYD:** *Telefon nömrəsini düzgün daxil etdiyinizdən əmin olmalısınız. Ehtiyac olduğu halda bu nömrəyə SMS məlumatlar göndəriləcək.*




**Şəkil 4.**

## 3. “İstiqamət” adlanan Üçüncü addımda səyahətinizin istiqaməti qeyd olunur. (Şəkil 5)

- **Bu mərhələdə “Ölkəyə giriş”, “Ölkədən çıxış” istiqamətləri qeyd olunmalıdır.**
- **Ölkəyə giriş zamanı gəldiyiniz ölkə seçimi edilməlidir.**
- **Ölkədən çıxış zamanı getdiyiniz ölkə seçimi edilmədir.**
- **“Keçirilmə xüsusiyyəti” altbölməsində bəyan etdiyiniz malların hansı növ nəqliyyat vasitəsi ilə ölkə ərazisinə gətirildiyi və ya hansı nəqliyyat vasitəsi ilə səyahət etdiyiniz barədə müvafiq sahəni seçməlisiniz.**
  - **Avtonəqliyyat, piyada, hava nəqliyyatı, dəniz nəqliyyatı və ya dəmiryolu nəqliyyatı seçimlərindən biri edilməlidir.**

- **“İrəli” düyməsi sıxılmaqla növbəti mərhələyə keçid edilir.**




Şəkil 5.

4. Dördüncü mərhələdə **mallar**, **valyuta**, **avtonəqliyyat vasitələri** və **vəfat etmiş səxslər** haqqında məlumatlar daxil edilir. Bəyan etmək istədiyiniz məlumatların kateqoriyasından aslı olaraq hər bölmədə təqdim olunan suallara **“Bəli”**- cavabını seçdikdə **“+ Əlavə edin”** düyməsi aktivləşir. Müvafiq düymələri sıxdıqda açılacaq pəncərədə ətraflı məlumatları daxil etməlisiniz. Əgər müvafiq kateqoriyaya aid bəyan ediləcək məlumat yoxdursa **“Xeyr”** sahəsini seçməlisiniz. (Şəkil 6, 7, 8, 9, 10)




Şəkil 6.

## 4-cü mərhələdə məlumatlar aşağıdakı qaydada daxil edilməlidir.

### *– Mallar haqqında məlumatlar –*




**Şəkil 7.**

- **İlk olaraq Malların kateqoriyası – (1), aid olduğu əsas qrup – (2), aid olduğu alt qrup – (3) seçimləri edilməlidir.**
- **Növbəti olaraq, malın təsviri mütləq qeyd olunmalıdır.**
- **Malın dəyəri – (5) ABŞ dolları ilə konvertasiya olunaraq Mərkəzi Bankın cari məzənnəsinə uyğun qeyd olunmalıdır.**
- **Gətirilən və ya aparılan malın miqdarı – (6) və ölçü vahidi – (7) qeyd olunmalıdır.**

- **Əgər ölkəyə gətirdiyiniz və ya apardığınız malı müvəqqəti gətirirsinizsə və ya aparırsınızsa – (8) (yəni bir müddət sonra geri qaytaracaqsınızsa) o zaman müvafiq sahə seçilməli və müvafiq xanaya malın geri qaytarılma tarixi qeyd olunmaldır.**

✓ **QEYD:** *“Müvəqqəti keçirilən mallar” altbölməsini seçdiyiniz təqdirdə siz həmin malı mütləq geri qaytarmalısınız. Çünki, bəyannamə gömrük əməkdaşı tərəfindən təsdiq olunduqdan sonra sizin sərhədi keçmənizə məhdudiyyət qoyulacaq. Malları geri qaytaran zaman gömrük-sərhəd keçid məntəqəsində gömrük əməkdaşına yaxınlaşaraq malları təqdim etdiyiniz halda sizin sərhədkeçmə məhdudiyyətiniz ləğv ediləcəkdir. Sərhədkeçmə məhdudiyyətini “e.customs.gov.az/for-individuals/border-restrictions” keçidindən yoxlaya bilərsiniz.*

- **Gətirilən və ya aparılan mala icazə sənədi tələb olunursa – (9) müvafiq sahə seçilməli, “Sənəd verən qurumun adı”, “Sənədin nömrəsi və verilmə tarixi” qeyd olunmalıdır.**

✓ **QEYD:** *Bəzi mallara xüsusi icazə sənədi tələb olunur. (məsələn: silah, pilotsuz uçuş aparatıvə s). Bu halda “İcazə sənədi tələb olunur” altbölməsini qeyd edib müvafiq icazə sənədində göstərilən məlumatları daxil etməlisiniz.*

✓ **QEYD:** *Əgər mobil telefon haqqında məlumatı daxil edirsinizsə “İMEİ” xanaları aktivləşəcəkdir və məlumatların düzgün daxil edildiyindən əmin olmalısınız. Çünki, “www.imei.az” portalında telefonunuz qeydiyyatdan keçirilərkən daxil etdiyiniz İMEİ kod vasitəsi ilə yoxlanılacaq. Əgər uyğunsuzluq olarsa telefonunuzun qeydiyyatdan keçirilməsi mümkün olmayacaq.*

- **Bütün zəruri məlumatları daxil etdikdən sonra “Əlavə et” sahəsi sıxılmalıdır.**

### – *Valyuta haqqında məlumatlar* –




Şəkil 8.

- Ölkə ərazisinə daha çox gətirilən və ya aparılan valyutalar əsas pəncərədə (ABŞ dolları, Rusiya rublu, Avro, AZN) əks olunmaqdadır. Bəyan edilməli digər valyuta növünə uyğun pul vahidi varsa, **"Valyuta seçin"** xanasından müvafiq valyutanı seçməlisiniz. **"Məbləğ"** xanasına məbləği qeyd edib **"Əlavə edin"** sahəsini sıxmalısınız.
- Müvafiq məlumatlar daxil edildikdən sonra **"Əlavə et"** sahəsi sıxılmaldır.

### – Avtonəqliyyat vasitələri haqqında məlumatlar –

- Gömrük ərazisinə daxil olması nəzərdə tutulan avtonəqliyyat vasitəsinə görə məsul şəxs tərəfindən nəqliyyat vasitəsinə dair məlumatlar təqdim edilməlidir.
- Nəqliyyat vasitəsinin keçmə məqsədi, markası, modeli seçilməli, şassi nömrəsi, mühərrik həcmi və istehsal ili qeyd olunmalıdır.
- Müvafiq məlumatlar daxil edildikdən sonra **"Əlavə et"** sahəsi sıxılmaldır.




Şəkil 9.

## – *Ölmüş şəxslər haqqında məlumatlar* –




Şəkil 10.

- **Vəfat etmiş şəxslərin cənazəsi ölkə ərazisinə gətirildiyi zaman müvafiq məlumatlar daxil edilərək bəyannamə tərtib olunmalıdır.**
- **Ölmüş şəxsin şəxsiyyətini təsdiq edən sənədin nömrəsi – (1), ad, soyad, ata adı – (2) və ölüm faktını təsdiq edən sənədin nömrəsi – (3)**
- **“Qeyd” sahəsinə – (4) ölmüş şəxslə bağlı əlavə məlumatlar mütləq qeyd olunmalıdır.**
- **Müvafiq məlumatlar daxil edildikdən sonra “Əlavə et” sahəsi sıxılmaldır.**

➢ **Əlavə mallar olduqda “Yeni mal əlavə et” düyməsini sıxmaqla məlumatların daxil edilməsini həyata keçirə bilərsiniz. Bundan əlavə, kateqoriyalar üzrə məlumatları daxil etdikdən sonra “+ Yeniləyin” düyməsi aktivləşir. Əgər əlavə etmək istədiyiniz digər mallar varsa yeniləyin düyməsi sıxılaraq məlumatlar daxil edilməlidir.**






## 5. "Təsdiqlə" adlanan beşinci addımda bəyannamə üzrə daxil etdiyiniz bütün məlumatları görə və təsdiq edə bilərsiniz. (Şəkil 10)




**Şəkil 10.**

- **Bu mərhələdə daxil etdiyiniz məlumatları siyahı şəklində görmək imkanınız var. – (1) Əgər dəyişiklik etməyə ehtiyac yaranarsa "Düzəliş" və ya "Sil" ikonlarına – (2) sıxmaqla əməliyyatları icra edə bilərsiniz.**
- **Cari ödəyəcəyim rüsumlar pəncərəsində – (3) yaranmış gömrük borcuna dair ətraflı məlumat əldə etmək mümkündür.**
- **Son olaraq "*Bəyannamədə yanlış məlumat göstərməklə mövcud qanunvericiliyə uyğun məsuliyyət daşıyacağım mənə məlumdur.*" – *(4)* sahəsini seçməklə aktivləşən "Təsdiqlə" düyməsi sıxaraq bəyannaməni təsdiqləyirsiniz.**




- **Bəyannamə təsdiqləndikdən sonra ekranda aşağıdakı bildiriş əks olunur.** *"Bəyannamə üzrə 0 AZN gömrük borcu yaranmışdır. Bəyannaməni çap edin və bəyan edilən mallarla birgə Gömrük orqanına yaxınlaşın. Gömrük əməkdaşı bəyannamənin düzgünlüyünü yoxladıqdan sonra təsdiq edəcək və yaxud ehtiyac olduğu təqdirdə düzəliş edilməsi məqsədilə geri qaytaracaq. Geri qaytarılan bəyannamədə düzəliş edib yenidən göndərməlisiniz. Bəyannamə təsdiq olunduqdan sonra ödənişləri etmək mümkün olacaq."*

- **Sərnişinlər üçün sadələşdirilmiş bəyannaməni elektron qaydada təqdim etdikdən sonra tərtib olunmuş bəyannamənin düzgünlüyü gömrük əməkdaşı tərəfindən yoxlanılır. Məlumatların düzgünlüyü təsdiqləndikdən sonra bəyannamə təsdiqləndi statusunu alır. Beləliklə bəyannamə üzrə gömrük borcu olduqda "Ödəniş" düyməsi aktivləşir. "Ödəniş" düyməsi sıxılır açılan pəncərədə bank kartınızın ilk 6 rəqəmini daxil edirsiniz "Ödəniş edin" düyməsi sıxılmaqla (Şəkil 13) Hökumət ödəniş portalına "gpp.az" portalına yönləndirilir. Ödəniş edildikdən sonra bəyannamə avtomatik təsdiq olunur.**
- **Bəyannamə üzrə gömrük borcu yaranmadığı halda isə təsdiqlə düyməsi sıxıldığı zaman bəyannamə qəbul edilir və proses başa çatır. (Şəkil 11)**

✓ **QEYD:** *Gömrük borcu ödənilmədiyi halda bəyannaməniz qəbul edilməyəcəkdir.*




**Şəkil 11.**

- **"Sərnişinlər üçün sadələşdirilmiş bəyannamə" elektron xidmətində əlavə bir sıra funksiyalardan yararlanmaq mümkündür: (Şəkil 11)**

– **Sərnişinlər üçün sadələşdirilmiş bəyannaməni tərtib etmək üçün "Yeni bəyannamə" düyməsi sıxılmalı və açılan pəncərələrdə müvafiq məlumatlar doldurulmalıdır. – (1)**

– **Müvafiq tarix intervalını seçib, axtarış düyməsini sıxmaqla tarix aralığına uyğun daxil etdiyiniz bəyannamələr haqqında məlumatlar əldə edə bilərsiniz. – (2)**

– **Bu pəncərədə həmçinin cari ay ərzində sərnişin bəyannamələri üzrə rəsmiləşdirilən malların ümumi dəyəri – (3)**

– **Cari ay üçün limitinizin qalığı – (4)**

– **Cari ay ərzində rüsumsuz gətirə biləcəyiniz malların ümumi dəyəri öz əksini tapır. – (5)**

- **Tərtib etdiyiniz bəyannamənin statusu barədə məlumatlar 3 mərhələdən ibarət olmaqla göstərilir: Yeni, İcrada, Ödəniş edin,Təsdiq edildi statusları vasitəsilə bəyannamənin icra prosesini izləyə bilərsiniz. – (6)**

–  **"Üç nöqtə" təsviri olan ikonunu sıxmaqla açılan pəncərədə bəyannamə üzrə düzəliş, sil, çap əməliyyatlarını həyata keçirə bilərsiniz. – (7)**

–  **"Göz" təsviri olan ikonunu sıxmaqla açılan pəncərədə bəyannamə məlumatları və gömrük əməliyyatlarının icra prosesi barədə məlumat əldə edə bilərsiniz. – (8)**




**Şəkil 12.**

✓ **QEYD:** *Portalın ana səhifəsində "Rəy və təkliflər" bölməsinə daxil olaraq müvafiq gömrük orqanınını və ya xidmət sahəsini seçməklə öz rəy və təkliflərinizi bildirə bilərsiniz. Məlumatlarınızın təhlükəsizliyi üçün Portalda işlərinizi yekunlaşdırdıqdan sonra "Asan çıxış" vasitəsi ilə sistemdən çıxmağı unutmayın.*